**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# SSRİ-nin YENİDƏNQURMA SİYASƏTİ VƏ AZƏRBAYCAN SSR

İxtisas: 5503.02 – "Vətən tarixi"

Elm sahəsi: Tarix

İddiaçı: **Rübabə Yasin qızı Əzizova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**SUMQAYIT - 2024**

Dissertasiya işi Sumqayıt Dövlət Universitetinin Azərbaycan və Şərqi Avropa xalqları tarixi kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: tarix elmləri doktoru, professor
**Adil Baxşəli oğlu Baxşəliyev**

Rəsmi opponentlər: tarix elmləri doktoru, professor
**İradə Mehdiqulu qızı Hüseynova**

tarix elmləri doktoru, professor
**Qasım Əhəd oğlu Hacıyev**

Tarix üzrə fəlsəfə doktoru, dosent
**Afaq Yusif qızı Piriyeva**

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi * BAKI DÖVLƏT UNİVERSİTETİ p.h.ş. * Ministry of Science and Education of the Republic of Azerbaijan * BAKU STATE UNIVERSITY l.e.p.l.

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.20 saylı Dissertasiya şurası

Dissertasiya şurasının sədri: ____________ tarix elmləri doktoru, professor
**İbrahim Xudaverdi oğlu Zeynalov**

Dissertasiya şurasının elmi katibi: ____________ tarix üzrə fəlsəfə doktoru, dosent
**Kəmalə Telman qızı Nəcəfova**

Elmi seminarın sədri: ____________ tarix elmləri doktoru, dosent
**Fazil Eynulla oğlu Baxşəliyev**

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi
BAKI DÖVLƏT UNİVERSİTETİ p.h.ş.
Ministry of Science and Education of the Republic of Azerbaijan
Baku State University l.e.p.l.
BDU
ELMİ KATİB
SCIENTIFIC SECRETARY
İmzanı təsdiq edirəm: ____ (S.A.A.)
"26" 12 2024

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Ulu öndər H.Əliyev Azərbaycan xalqının tarixinə və onun ənənələrinə yüksək qiymət verərək demişdir ki, *"Azərbaycan xalqının bizim eranın iki min ili ərzində keçib gəldiyi yol yenilməz, zəngin, mərdanə bir qəhrəmanlıq tarixidir!"*[1] Bu baxımdan tam əminliklə demək olar ki, XX əsrdə bizim qazandığımız uğurların, müstəqil dövlət qurmaq əzmimizin köklərini uzaq və yaxın tariximizdə axtarıb tapmaq lazımdır.

Tədqiqat mövzusu çox aktualdır. Çünki bugünkü inkişaf səviyyəmiz nə qədər yüksək olsa da, xalqımızın və dövlətimizin öz inkişafı yolunda yeni yüksək zirvələrə nail olması keçilmiş yolda əldə edilmiş təcrübənin təhlilini, cəmiyyətimizin gələcək inkişaf perspektivlərini müəyyənləşdirməyi zəruri edir.

Ümummilli lider Heydər Əliyev 1997-ci il yanvarın 31-də Azərbaycan MEA-da alimlərlə görüşdə tariximizin elmi və obyektiv şəkildə öyrənilməsini mühüm vəzifə kimi irəli sürərək demişdi ki, *"indi akademiya qarşısında duran başlıca vəzifələrdən biri XIX - XX əsrlər Azərbaycan xalqının tarixinin yazılmasıdır"*.[2] Bu baxımdan baş vermiş ictimai - siyasi hadisələrin zənginliyi ilə xüsusi olaraq fərqlənən 1985-1991-ci illər Azərbaycan tarixinin öyrənilməsi bu gün də olduqca əhəmiyyətlidir.

XX əsrin 80-ci illərinin sonu - 90-cı illərinin əvvəlində SSRİ-də, o cümlədən 70 ilə yaxın onun tərkibində qalmış Azərbaycan SSR-də baş vermiş sosial - iqtisadi və siyasi proseslər sonda milli dövlətçiliyimizin bərpası ilə nəticələnmişdir. Son vaxtlar bu illərin tədqiqinə dair bir çox monoqrafiyalar, kitablar dərc edilsə də, həmin illərdəki ictimai - siyasi vəziyyətlə bağlı bütün məsələlərin sonadək araşdırıldığını demək düz olmazdı. Bu, tədqiqatın aktuallığını şərtləndirən səbəblərdən biridir.

1980-ci illərin ortalarında SSRİ-nin sonuncu rəhbəri M.Qorbaçovun irəli sürdüyü "yenidənqurma" siyasəti respublikada

---

[1] Əliyev, H. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayırıcında. //Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına müraciət. 29 dekabr 2000-ci il / H.Əliyev. - Bakı: XXI - Yeni Nəşrlər Evi, - 2001. - s.51.

[2] Əliyev, H. Müstəqilliyimiz əbədidir: [9 clddə] / H.Əliyev. - Bakı: Azərnəşr, - 8-ci cild. - 1998. - s.369.

cəmiyyət həyatının bütün sahələrində vəziyyətin pisləşməsinə, istehsalın kəskin şəkildə azalmasına gətirib çıxardı. M.Qorbaçov və onun yaxın əhatəsinin Dağlıq Qarabağ Muxtar Vilayətində dəstəklədiyi erməni seperatizminə qarşı etiraz hərəkatı respublikada gərginliyin artmasına səbəb olmuşdu. İctimai - siyasi vəziyyət kəskinləşmiş, cəmiyyətdəki qarşıdurma və ardınca müstəqillik uğrunda ümumxalq hərəkatı yüksəlmişdi. Bu gün o illərdəki vəziyyətlə əlaqədar problemlərin öyrənilməsi olduqca aktualdır və məsələ indi mühüm elmi-siyasi, nəzəri əhəmiyyət kəsb edir.

Tədqiqat mövzusunun aktuallığını artıran başqa bir səbəb budur ki, xalqımız totalitar rejimin mövcudluğu dövründəki müstəmləkə zülmünə, çoxsaylı deportasiya aktları və soyqırım siyasətinə baxmayaraq öz milli soyunu, dilini, dinini, mənəviyyatını nəinki itirməmiş, əksinə dünyada gedən prosesləri qabaqcadan görərək müstəqillik uğrunda mübarizə aparmışdır. Tədqiqatın əhatə etdiyi illər bu mübarizənin son və yüksək mərhələsi kimi yadda qalmışdır.

Belə bir cəhəti xüsusi olaraq nəzərə almalıyıq ki, Azərbaycanın öz müstəqilliyini bərpa etməsində H.Əliyevin 1969-1982-ci illərdə respublikaya rəhbərliyi illərində yaradılan maddi baza, mədəni və kadr potensialı mühüm rol oynamış, milli özünüdərkin və milli ruhun inkişafı həlledici əhəmiyyət kəsb etmişdir. Ümummilli lider H.Əliyev bu məsələdən bəhs edərək demişdir: "*Azərbaycan* Respublikasının *dövlət müstəqilliyinin elan olunması tarixi zərurətdən meydana gəlmiş bir hadisədir. Bu, o illərdə, ondan əvvəlki bir neçə ildə SSRİ-də və bütün dünyada gedən ictimai - siyasi proseslərin məntiqi nəticəsidir. Bu, tarixi obyektiv proseslərin qanunauyğun nəticəsi, taleyin Azərbaycan xalqına və bütün keçmiş SSRİ respublikalarının xalqlarına əvəzsiz töhfəsi idi*". [3]

Azərbaycan SSR Sovet imperiyasının süqutu ərəfəsində mövzusu indiyədək xüsusi və müstəqil tədqiqat obyekti kimi seçilməmişdir. Digər tərəfdən, yuxarıda qeyd etdiklərimiz göstərir ki, 80-cı illərin ortalarından SSRİ-nin süqutuna qədər Azərbaycan SSR-də gedən və dövlət müstəqilliyimizin bərpasına aparıb çıxaran proseslərin bu gün hərtərəfli araşdırılmasına və təhlilinə ciddi ehtiyac duyulur. Bu

[3] Əliyev, H. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayırıcında. //Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına müraciət. 29 dekabr 2000-ci il / H.Əliyev. - Bakı: XXI - Yeni Nəşrlər Evi, - 2001. - s.28.

proseslərin rəngarəngliyi, məzmununun zənginliyi baxımından xüsusi olaraq fərqlənən 1985-1990-cı illər Azərbaycan tarixinin öyrənilməsinin dissertasiya mövzusu kimi seçilməsi məhz bu zərurətdən irəli gəlmişdir.

Tədqiqat işini yazarkən Heydər Əliyevin belə bir konsepsiyası rəhbər tutulmuşdur: *"Biz tariximizin hər bir dövrünü subyektivlikdən tamamilə kənar, olduğu kimi əks etdirməliyik. Biz onu gələcək nəsillərə olduğu kimi çatdırmalıyıq."*[4]

Bu gün problemin bəzi aspektləri haqqında yazılmış müxtəlif kitablar, məqalələr və digər yazılar mövcuddur. Lakin bu yazıların heç birində bizim tədqiqat mövzumuz, onun elmi - nəzəri əsasları, praktiki əhəmiyyəti, prinsipləri, xüsusiyyətləri və istiqamətləri, onların qarşılıqlı əlaqələri sistemli şəkildə tədqiq olunmamışdır. Dərc edilmiş əsərlər tədqiqat mövzumuzun bəzi sahələrini, çox vaxt da fərqli illər üzrə əhatə etmiş, mövzu xüsusi tədqiqat obyekti kimi seçilməmişdir.

Tədqiqat işində görkəmli dövlət və ictimai xadim, qeyri-adi təfəkkürə malik Heydər Əliyevin əsərlərindən, məruzə və çıxışlarından hərtərəfli istifadə olunmuşdur. Heydər Əliyevin müxtəlif çıxışlarında[5] Azərbaycanın son 34 ildəki sosial - iqtisadi inkişafı, ictimai vəziyyəti, ən başlıcası isə müstəqillik üçün istiqlal mücadiləsinin zəfərlə başa çatması məsələləri hərtərəfli əsaslandırılmışdır.

Tədqiqat mövzusunun bəzi məsələləri haqqında İ.Əliyevin çıxışlarındakı yanaşmalar da qənaətlərimizdə əsas olmuşdur.[6]

Tədqiqatımızın gedişində 80-cı illərin ortalarından başlayaraq həyata keçirilən yenidənqurma ilə əlaqədar islahat və dəyişikliklərin, onların respublikamıza təsirinin nəticlərindən bəhs edən müxtəlif yazılara da diqqət yetirilmiş, çoxuna münasibət də bildirilmişdir.[7]

---

[4] Azərbaycan tarixinin parlaq səhifələri. – Bakı: Azərbaycan, 1998. - s.10.

[5] 48.Əliyev, H. Müstəqilliyimiz əbədidir: [9 cilddə] / H.Əliyev. - Bakı: Azərnəşr, - 8-ci cild. - 1998. - 488 s.; c. 45. - 2013. - 384 s.; Azərbaycan elminin keşiyində. Sənədlər və materiallar. [İki cilddə] / H. Əliyev. - Bakı: Turxan NPB, - 1-ci cild. - 2013. - 668 s.

[6] Əliyev İlham. İnkişaf - məqsədimizdir: dekabr 2015 - fevral 2016. [105 cilddə] / İ.Əliyev. - Bakı: Azərnəşr, - Yetmiş ikinci kitab. dekabr 2015 - fevral 2016. - 2018, - 400 s.; Doxsan səkkizinci kitab. noyabr 2019 - dekabr 2019. - 2019, - 392 s.; - Yüz üçüncü kitab. may 2020 - iyun 2020. - 2020, - 392 s.

[7] Əliyev, İ. 1980-ci illərdə SSRİ-də Y. Andropov hakimiyyəti və onun islahatları // - Bakı: Geostrategiya, - 2017. №04, - s. 3-6.; Əmirov, H. Azərbaycan SSR-nin

Tədqiqatımızın gedişində Azərbaycan SSR-də Sovet imperiyasının süqutu ərəfəsindəki sosial-iqtisadi və siyasi vəziyyətlə bağlı müəyyən məsələlərin dəqiqləşdirilməsi baxımından bəzi əsərlərin əhəmiyyətini də nəzərə almışıq.[8]

Ermənistanın azərbaycanlılara qarşı soyqırım törətməsi, Dağlıq Qarabağın tarixən Azərbaycan torpağı olması, erməni separatçılarının Azərbaycana qarşı əsassız ərazi iddiaları təhlil edilən əsərlərə, bir sıra toplu nəşrlərdəki sənədlərə də münasibət bildirməyə çalışmşıq.[9]

---

kənd təsərrüfatı 60-80-ci illərdə / H.Əmirov. - Bakı: Elm, - 1989, - 214 s. ; Nəbiyev, B. Azərbaycan SSR-nin iqtisadi inkişaf tarixi ( XX əsrin 60-80-ci illər). / B.Nəbiyev. - Bakı: BDU-nun nəşriyatı, - 2016. - 250 s.; Pənahov T. Azərbaycanda üzümçülük. / T.Pənahov, V.Səlimov, Ə.Zari. Bakı: Müəllim, - 2010. - 224 s.; Şahmuradov A.Ş. SSRİ-nin süqutu prosesi haqqında // - Bakı: Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası, - 2012. №4, - s.60-70.; Zeynalov, İ. Azərbaycanın sosial-iqtisadi inkişafı (70-80-ci illər) / İ.Zeynalov. - Bakı: Bakı Universiteti nəşriyyatı, - 1996. - 314 s.; Гулиев, Дж. К истории образование второй Республики Азербайджана / Дж. Гулиев. - Баку: Элм, - 1997. - 163 с.; Народное хозяйство Азербайджанской ССР к 70-летию Великого Октября. Юбилейный статистический ежегодник / - Баку: Азернешр, - 1987. - 314 с.

[8]Cəfərov H. Milli müstəqillik və azadlıq uğrunda mübarizə tarixinin Naxçıvan səhifələri. XX yüzilliyin 80-90-cı illəri / H.Cəfərov, A.Mustafayev. Bakı: Elm və təhsil, - 2012. - 167 s.; Quliyev C. Tarix: düşüncələr, mülahizələr və qeydlər... (1953-2003) / C.Quliyev. - Bakı: Elm, - 2004. - 764 s.; Muradov, Ş. Azərbaycan Respublikası əhalisinin dinamikası və quruluşu. Azərbaycan Respublikası əhalisinin dinamikası və quruluşu: əsas demoqrafik etno-demoqrafik dəyişikliklər (1897-2007-ci illər) / Ş. Muradov. - Bakı: Elm, - 2008. - 240 s.; Şükürov, K. Azərbaycan tarixi. 3 hissədə. I hissə. Elmi-nəzəri və praktik problemləri / K.Şükürov. - Bakı: Bakı Universiteti, - 2004. - 233 s.

[9] Azərbaycanlılara qarşı soyqırım gerçəklikləri / Məsul red. F. Abdullazadə - Bakı: - 2000. - 204 s.; Ermənistanın işğalçı siyasətinin iflası. Məqalələr toplusu / Lay. müəl. E. Süleymanov - Bakı: 2019. - 304 s.; Ruintən K. Ermənistanın Azərbaycana təcavüzü və dünya siyasəti / K. Ruintən. - Bakı: Adiloğlu nəşriyyatı, - 2008. - 260 s.; Şahmuradov A.Ş. Ermənistanın işğalçı siyasətinin ifşası // - Bakı: Məqalələr toplusu, - 2019. s.127-147.; К истории образования Нагорно-Карабахской автономной области Азербайджанской ССР. 1918-1925 гг. Документы и материалы / Под ред. Д. П. Гулиева - Баку: Азернешр, - 1989. - 334 s.; Конфликт в Нагорном Карабахе. Сборник статей / Составитель И. Ш. Шукюров - Баку: Азернешр, - 1990. - 272 с.; Нагорный Карабах: Разум победит. Документы и материалы / - Баку: Азернешр, - 1990. - 445 с.; Черный январь. - Баку - 1990: Документы и материалы / - Баку: Азернешр, - 1990. - 288 с.

Tədqiqatımızın gedişində araşdırmalarımızın nəticələrinin ümumiləşdirilməsi, onların bəzi əsərlərdəki, yazılardakı fikirlərlə müqayisə edilməsi baxımından azərbaycanlıların Ermənistandan, ata-baba yurdlarından qovulması, Dağlıq Qarabağ müharibəsi və 20 yanvar faciəsindən bəhs edilmiş əsərlərə də diqqət yetirilmişdir.[10]

Vətən tarixşünaslığında tədqiqat mövzumuza yaxın müəyyən məsələlərin verildiyi bir neçə əsər üzərində ayrıca dayanmaq istərdik. C.Quliyevin redaktorluğu ilə yazılmış əsər xalqımızın öz müstəqilliyinin bərpası uğrunda mübarizəyə həsr olunmuşdur.[11] Əsərdə vaxtı ilə sovet rejiminin yasaq etdiyi bəzi sənədlər elmi dövriyəyə daxil edilərək mərkəzin erməniləri himayə edərək rəhbər vəzifələrə gətirməsi ilə bağlı maraqlı fikirlər söylənilmişdir.

Ə.Məmmədovun zəngin faktlar əsasında yazdığı monoqrafiya Azərbaycan dövlətçiliyinin bərpası və onu möhkəmlətmək uğrunda mübarizə məsələlərinə həsr olunmuşdur[12]. Müəllif Heydər Əliyevin 80-90-cı illərdə xalq hərəkatının zəfərlə başa çatması, dövlət müstəqilliyinin bərpası və onu möhkəmlətmək uğrunda mübarizəsindəki xidmətlərinə xeyli yer vermişdir

İ.Hüseynovanın əsərləri Ulu Öndər H.Əliyevin Azərbaycan tarixindəki nəhəng xidmətlərinə həsr edilmişdir. Müəllif 80-90-cı illərdə Azərbaycanda baş verən ictimai - siyasi proseslərə də xeyli yer vermişdir.[13]

E.Əhmədovun bir sıra əsərlərində Dağlıq Qarabağda baş verən hadisələr, Ermənistanın Azərbaycana təcavüzü, bunun xalq hərəkatına

---

[10] Əliyev, İ. Dağlıq Qarabağ. Tarix, faktlar, hadisələr / İ. Əliyev. - Bakı: Elm, - 1989. - 120 s.; Məmmədov I. Ermənistan azərbaycanlıları və onların acı taleyi. / I. Məmmədov, S.Əsədov. - Bakı: Azərbaycan, - 1992. - 72 s.; Мусаев, Т. Правовые аспекты Нагорно-Карабахского конфликта / Мусаев.Т. - Баку: - Шарг-Гарб, - 2001. - 72 с.

[11] Quliyev C. Tarix: düşüncələr, mülahizələr və qeydlər... (1953-2003) / C. Quliyev. - Bakı: Elm, - 2004. - 764 s.

[12] Məmmədov Ə. Müstəqil Azərbaycan dövlətinin bərpası və möhkəmləndirilməsi uğrunda mübarizə / Ə. Məmmədov. - Bakı: Elm, - 1999. - 368 s.

[13]Hüseynova, İ. Müstəqilliyimizin təminatçısı. (Məqalələr, çıxışlar, müsahibələr, rəylər...) / Hüseynova İ. - Bakı: Təhsil, - 2003, - 504 s.; Müstəqil Azərbaycan dövlətinin qurucusu / İ. Hüseynova. Bakı: Təhsil, - 2004. - 472 s.

təsiri ilə bağlı bəzi məsələlər təhlil olunmuşdur və biz bunları tədqiqatımızda nəzərə almışıq.[14]

Rusiyalı müəlliflər arasında Y.Pompeyevin əsərləri erməni ekstremistlərinin Azərbaycan torpaqlarını ələ keçirmək siyasətinin ifşası üçün mühüm əhəmiyyətə malikdir.[15] Qeyd edilən əsərlər ümumi cəhət budur ki, erməni ekstremistləri həmişə hakimiyyət böhranından, yenidənqurma siyasətindən istifadə edərək Azərbaycana qarşı hərbi təcavüzə başlamışlar.

Tədqiqatımıza yaxın olan müxtəlif problemlərin dissertasiya mövzusu kimi seçilməsi Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra intensiv xarakter almış və bu iş bu gün də davam edir. Bu dissertasiyalar haqqında bəzi mülahizələrimiz var.[16]

---

[14] Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü: təhlilli xronika (1987-2011). Ensiklopedik nəşr / E. Əhmədov. - Bakı: Letterpress, - 2012. - 912 s.; Ermənistanın Azərbaycana təcavüzü: etnik təmizləmə, soyqırımı, terror, işğal. II kitab / E. Əhmədov. - Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, - 2015. - 408 s.; Ermənistanın Azərbaycana təcavüzü: Beynəlxalq təşkilatların və böyük dövlətlərin siyasəti. III kitab / E. Əhmədov. - Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, - 2015. - 368 s.

[15] Pompeyev, Y. Qarabağ qan içində. Tərcümə / Y. Pompeyev. Bakı: Azərbaycan Ensiklopediyası NPB, - 1996. - 160 s.; Кровавый омут Карабаха / Ю.Помпеев. - Баку: Азербайджан, - 1992. - 208 с.; Карабахский дневник / Ю.Помпеев. - Москва: Канон+РООИ Реабилитация, - 2010. - 416 с.

[16] Əhmədov, E.İ. Böyük dövlətlərin Qarabağ münaqişəsinə dair siyasəti: / Tarix üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / - Bakı. 2001, - 32 s.; İbrahimova, P.Y. Beynəlxalq təşkilatların Dağlıq Qarabağ probleminə dair mövqeyi Azərbaycan mətbuatında (1988-2005-cı illər): / siyasi elmlər üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / - Bakı, 2011. - 18 s.; Məmmədov, Ə.M. Müstəqìl Azərbaycan dövlətinin bərpası və möhkəmləndirilməsi uğrunda mûbarizə (1980-ci illərin sonu - 1997-ci il): / tarix üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / - Bakı, 2005. - 58 s.; Məmmədov, İ.. Ermənıstanın azərbaycana qarşı işğalçılıq siyasətinin tərkib hissəsi: / tarix üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / - Bakı, 2015. - 32 s.; Məmmədov, N.R. Azərbaycan SSR-ın Dağlıq Qarabağ Muxtar Vilayətinin tarixi (1923-1991): / tarix üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / Bakı, 2011. - 64 s.; Mustafayev, Ə.X. Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsində Rusiya Federasiyasının mövqeyi (1988-2005-ci illər): / tarix üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / - Bakı, 2017. - 26 s.; Гурбанлы, М.М. Геополитические аспекты нагорно - карабахского конфликта: / автореферат дисс. на соискание ученой степени доктора философии по политическим наукам. / - Баку, 2017. - 35 с.

Tədqiqatımızın gedişində SSRİ-nin süqutu ərəfəsində Rusiya Federasiyası, Ukrayna, Gürcüstan və digər respublikalarda gedən proseslərə aid problemləri araşdıran dissertasiyaların əsas müddəalarını da nəzərdən keçirmişik.[17]

Dissertasiyada Rusiya tarixşünaslığında tədqiqat mövzumuzun bəzi tərəfləri ilə bağlı məsələlərin öyrənilməsi baxımından fərqlənən əsərlərdəki fikirlərini də nəzərə almışıq.[18]

---

[17]Алимов, Б.Х. Социально-экономические и политические процессы в республике Таджикистан (1991-1997 гг.): / автореферат дисс. на соискание учёной степени кандидата исторических наук. / - Худжанд, 2008. - 22 с.; Асано, Наоми. Украина: Обретение независимости. 1985 - 1991 гг: / автореферат дисс. на соискание ученой степени кандидат исторических наук. / - Москва, 1999. - 29 с.; Выставкин, К.С. Экономическая политика СССР 1985-1991 гг. в оценках современников: / диссертация ... кандидата исторических наук. / - Москва, 2006. - 220 с.; Кобилова, С.Я. Обострение общественно-политической ситуации в Таджикистане в период перестройки: / 1985-1991 гг. автореферат дисс. кандидат исторических наук. / - Худжанд, 2007. - 27 с.; Мусатов, И.М. Советское общество в условиях перестройки в СССР на рубеже 1980-х - 1990-х гг.: / автореферат дисс. на соискание ученой степени кандидата исторических наук. / - Москва, 2007. - 30 с.;

[18]Безбородов, А. Перестройка и крах СССР. 1985-1993. / А.Безбородов, Н.Елисеева, В.Шестаков. - СПб.: Норма, - 2010. - 216 с.; Болдин В.И. Крушение пьедестала. Штрихи к портрету М.С.Горбачева / - Москва: Республика, 1995. - 447 с.; Елисеева, Н. История перестройки в СССР. 1985 - 1991 гг. / Н.Елисеева. - Москва: РГГУ, - 2017. - 548 с.; Жирохов, М. Семена распада: войны и конфликты на территории бывшего СССР. / М.Жирохов. - Санкт-Петербург: БХВ – Петербург, - 2012. - 688 с.; Жуков, В. Новейшая история России: Перестройка и переходный период. 1985 – 2005 гг. / В.Жуков. - СПб.: СПбГ АСУ, - 2006. - 183 с.; Кириллов, В.В. Проблема распада СССР в новейшей историографии // - Москва: Вестник Московского городского педагогического университета, Серия: Исторические науки, Московский городской педагогический университет, 2015. № 3 (19), - с. 62-70.; От Майендорфа до Астаны: принципиальные аспекты. О армяно-азербайджанского нагорно - карабахского конфликта / Под ред. Г.М.Алексеева - Москва: Информационно-аналитический центр, - 2010. - 552 с.; Соломенцев, М. Зачистка в Политбюро. Как Горбачев убирал "врагов перестройки" / М.Соломенцев. - Москва: Эксмо, Алгоритм, - 2011. - 221 с.; Таубман, У. Горбачев. Его жизнь и время / У.Таубман. - Москва: АСТ, Corpu, - 2018. – 1268 с.

Tədqiqat mövzumuzla bağlı məsələlərin tədqiq olunduğu əsərlərin, müxtəlif səpkili yazıların Türkiyə tarixşünaslığında və mətbuatında da yer tapmasını deməliyik. Bu əsərlər Azərbaycanın dölət müstəqilliyinin bərpa edilməsi, ikitərəfli əlaqələrin genişlənməsi və digər məsələlərdən bəhs etməsi ilə diqqəti cəlb etmişdir.[19]

Bəhs etdiyimiz müxtəlif növ tədqiqat, monoqrafiya və əsərlərin hər birinin elmi məzmununa və əhəmiyyətinə baxmayaraq, onların heç birində bizim tədqiqat illərimiz, mövzumuz elmi araşdırma və ya dissertasiya mövzusu kimi seçilməmişdir.

Tədqiqatımızda internet saytlarında verilmiş SSRİ-nin süqutu ərəfəsində Azərbaycan cəmiyyətində baş verən hadisələrə, proseslərə aid bir çox məsələlərə diqqət yetirərək, onların nəticələri əsasında da müəyyən qənaətlər söyləmişik.[20]

Tədqiqatımızın gedişində çoxcildli Azərbaycan tarixi nəşrinin 7-ci cildindəki və bir sıra rəsmi partiya-dövlət sənədlərindəki materialların məzmunu ilə bağlı müddəalar nəzərə alınmışdır.[21]

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti SSRİ-nin süqutu ərəfəsində Azərbaycan SSR-də mövcud olan sosial-iqtisadi və

---

[19] Paşayeva Aynurə. 1988 - 1994-cü illər Türkiyə mətbuatının Azərbaycanda baş verən siyasi hadisələrə yanaşma tərzi: [Elektron resurs] https://dergipark.org.tr/tr/pub/tudad/issue/43081/481874; Karabayram, Fırat. Rusya Federasyonu'nun Güney Kafkasya Politikası / Fırat Karabayram. - Ankara: Atılım Üniversitesi, - 2007. - 357 s.; Levent, Şen. Turkiye ve Guney Kafkasya gercegi: Soğuk Savaş sonrası Türkiye'nin Güney Kafkasya politikası / Şen Levent. - Ankara: Ürun Yayınları, 2009. - 205 s.

[20] Abbasov İlham. Qanlı yanvar faciəsi: [Elektron resurs] http://www.respublica-news.az/index.php/dig-r-x-b-rl-r/item/1812-ganli-yanvar-fadziaesi; Azərbaycan milli azadlıq hərəkatının xüsusiyyətləri. [Elektron resurs] http://www.elibrary.az/docs/jurnal/jrn2007_330j.htm; Azərbaycanın taleyini dəyişən gün - 18 oktyabr: [Elektron resurs] https://demokratik.az/18097-azerbaycanin-taleyini-deyishen-gun-18-oktyabr.html; Erməni cinayətkarlığı. Soyqırım, deportasiya, terror. E - Məqalələr: [Elektron resurs] https://genocide.preslib.az/az_f1.html; Hüseynli Əli. Milli Qurtuluş günü müasir müstəqillik tariximizin dönüş nöqtəsidir: [Elektron resurs] http://www.xalqcebhesi.az/news/politics/49802.html

[21] Azərbaycan tarixi. [Yeddi cilddə] / - Bakı: - Elm, 7-ci cild (1941-2002-ci illər). - 2008. - 608 s.; Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirminci ildönümü / tərt. ed.: M.Vəliyeva və dig. - Bakı: Azərbaycan Milli Kitabxanası, - 2011. - 668 s.

siyasi vəziyyətdir. Tədqiqatın predmeti həmin dövrdə respublikada gedən proseslərin hərtərəfli və elmi şəkildə araşdırılmasıdır.

**Tədqiqatın məqsəd və vəzifələri.**

Tədqiqat işinin qarşısında duran əsas məqsəd Sovet rejiminin böhranı və süqutu ərəfəsində Azərbaycandakı ictimai-siyasi vəziyyəti, baş verən prosesləri obyektiv tədqiq etməkdir. Tədqiqatın məqsədinin daha geniş və dolğun yerinə yerililməsinə kömək məqsədi ilə aşağıdakı vəzifələr müəyyən edilmişdir:

- Müstəqillik ərəfəsində Azərbaycan SSR-dəki sosial- iqtisadi və ictimai-siyasi vəziyyəti kompleks halında təhlil etmək;
- "Yenidənqurma" siyasətinin ölkəni məhvə məhkum etməsi və onun Azərbaycan üçün faciəli nəticələrini işıqlandırmaq;
- Respublikada mərkəzin anti - Azərbaycan siyasətinə qarşı əhalinin müxtəlif kateqoriyalarının iştirakı ilə aparılan mübarizənin yeni cəhətlərini açıqlamaq;
- Erməni ekstremistlərinin Azərbaycana qarşı hərbi təcavüzünün gücləndiyi şəraitdə respublikada ictimai-siyasi vəziyyətin daha da kəskinləşməsini göstərmək;
- Mərkəzin Azərbaycan xalqının müstəqillik uğrunda mübarizəsini boğmaq cəhdlərinin iflasa uğramasının və ümummilli böhranın dərinləşməsi şəraitinin fərqli xüsusiyyətlərini təhlil etmək;
- Milli azadlıq hərəkatının yüksəldiyi şəraitdə çoxpartiyalılıq sisteminin yaranması və iflas etmiş Azərbaycan Kommunist Partiyasının buraxılmasının əhəmiyyətini açıqlamaq;
- Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında Konstitusiya aktının qəbul edilməsinin əhəmiyyətini göstərmək.

**Tədqiqatın nəzəri - metodoloji əsası.** Müasir siyasi konsepsiyalar, sintez, analiz kimi ümumi, tarixi müqayisə və s. üsulları özündə əks etdirən elmlərarası metodlar tədqiqatın nəzəri - metodoloji əsasını təşkil etmişdir. Dissertasiya konkret-tarixi təhlil əsasında yazılmış, zəngin arxiv sənədlərinin, statistik materialların ümumiləşdirilməsinə xüsusi diqqət yetirilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- SSRİ-ni süqutu ərəfəsində Azərbaycanda ictimai-siyasi vəziyyət və proseslər;

- Azərbaycanda ictimai-siyasi vəziyyət;
- Azərbaycan milli-azadlıq hərəkatında önəmli fəaliyyət göstərən şəxsiyyətlərin rolu, ilk növbədə H.Əliyevin müstəsna xidmətlərinin araşdırılması;
- Dağlıq Qarabağ münaqişəsinin və Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün xüsusi rol oynamasını sübut edən yeni təkzibolunmaz faktlar;
- Dağlıq Qarabağ münaqişəsinin milli azadlıq hərəkatının başlanması və güclənməsindəki rolu;
- Xalq hərəkatının gedişi və lik siyasi təşkilat və partiyaların yaranması;
- Dövlət müstəqilliyinin bərpasına aparan yolun son mərhələsinin ən əsas hadisələri və onların nəticələrin əhəmiyyəti;
- Müstəqillik uğrunda yüksələn ümumxalq mübarizəsinin əsas mərhələləri, gedişi və məntiqi sonluğu.

**Tədqiqatın mənbə bazası.** XX əsrin 80-ci illərinin ikinci yarısı - 90-cı illərinin əvvəllərində Azərbaycan SSR-də ictimai - siyasi vəziyyətin araşdırılması zərurəti tədqiqat mövzumuza aid hətta ən kiçik faktların olduğu sənəd və materialların toplanılmasını, sistemləşdirilməsini və öyrənilməsini tələb edir. Dissertasiyada çoxsaylı arxiv sənədlərindən, çap edilmiş sənədlər məcmuələrindən, dövlət və hökumət sənədlərindən, dövri mətbuat materiallarından da istifadə olunmuşdur. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivindəki (AR Pİİ SSA), Azərbaycan Respublikası Mərkəzi Dövlət arxivindəki (AR MDA) tədqiqat problemi ilə əlaqədar sənədlərin bir qismi ilk dəfə olaraq elmi dövriyəyə cəlb edilmişdir.

Həmin sənədlər əsasında Azərbaycanda o illərdə yaranmış ictimai - siyasi vəziyyəti ciddi təhlil edilmişdir. AR Pİİ SSA-nin birinci fondunda Azərbaycandakı ictimai - siyasi vəziyyətə dair çoxsaylı sənədlərin əhəmiyyəti xüsusi qeyd edilməlidir.

Dissertasiyada əsrin o dövrdəki sosial - iqtisadi vəziyyətlə bağlı göstəricilərin təhlili üçün respublikada və ittifaqın digər şəhərlərində çap edilmiş toplu və statistik nəşrlərdən də istifadə edilmişdir.[22]

---

[22]Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə / - Bakı: Elm, - 1990. - 381 s.; Azərbaycan - 80: (1923-2003) [Mətn]: Biblioqrafik göstərici / tərt.ed.: Ə.Əfəndiyev - Bakı: Çinar-Çap, - 2004. - 544 s.; Гулиев, Дж. К истории образование второй Республики

Bunların içərisində akademik Z.Bünyadovun redaktorluğu ilə çap edilən "Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə" kitabını xüsusi olaraq qeyd etməliyik [17].[23] Kitabda totalitar rejimin anti - Azərbaycan siyasəti, xalqımızın öz müstəqilliyi uğrunda mübarizəsi, erməni ekstremistlərinin əsassız ərazi iddialarının tam olması ilə əlaqədar qiymətli sənədlər, arxiv materialları verilmişdir.

AMEA-nın İnsan Haqları və Hüquq İnstitutunun nəşr etdiyi "Erməni terrorçu quldur birləşmələrinin bəşəriyyətə qarşı cinayətləri (XIX-XX əsrlər)" kitabı çoxsaylı arxiv sənədləri əsasında yazılmışdır.[24] Əsər erməni canilərinin son iki yüz il ərzində Azərbaycan və digər türk xalqlarına, bütün bəşəriyyətə qarşı tətbiq etdikləri deportasiya, soyqırım, terror aktlarını ifşa etmək baxımından xüsusi əhəmiyyət daşıyır.

Dissertasiya mövzusunun daha geniş və əsaslı şəkildə tədqiqi üçün rəsmi dövlət sənədlərinin, Azərbaycan Respublikasının qanunlarının, dövlət başçısının sərəncam və fərmanlarının mühüm mənbə rolu oynadığını da qeyd etməliyik.

**Tədqiqatın elmi yeniliyi.** Aşağıdakılardır:

- Dissertasiya vətən tarixşünaslığında 1985-1991-ci illərdə Azərbaycanda ictimai-siyasi vəziyyətin və proseslərin kompleks halında tədqiq edilməsinə həsr olunan ilk işdir;
- Dissertasiya zəngin faktik, statistik və arxiv materiallarının elmi dövriyəyə gətirilməsi əsasında yazılmış, Azərbaycanda ictimai-siyasi vəziyyət, onunla bağlı hadisələr təhlil olunaraq, lazımi ümumiləşdirilmələr edilmişdir;
- Tədqiqat prosesində Azərbaycan milli-azadlıq hərəkatında önəmli fəaliyyət göstərən şəxsiyyətlərin rolu, ilk növbədə H.Əliyevin müstəsna xidmətləri açıqlanmışdır;

---

Азербайджана / Дж. Гулиев. - Баку: Элм, - 1997. - 163 с.; Народное хозяйство Азербайджанской ССР к 60-летию образования СССР. Юбилейный стат. сб. / - Баку: Азербайджанское государственное издательство, - 1982. - 468 с.; Народное хозяйство Азербайджанской ССР в 1985 году. Статистический ежегодник / - Баку: Азербайджанское государственное издательство, - 1986. - 315 s.

[23] Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə / - Bakı: Elm, - 1990. - 381 s.

[24] Преступления армянских террористических и бандитских формирований против человечества (XIX-XXI вв.) / - Баку: Элм, - 2002. - 395 s.

- Dissertasiyada respublikada ictimai-siyasi vəziyyətin kəskinləşməsində mərkəzin hərtərəfli dəstəklədiyi Dağlıq Qarabağ münaqişəsinin və Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün xüsusi rol oynaması yeni təkzibolunmaz faktlarla əsaslandırılmışdır;

- Tədqiqatda Azərbaycanın geostrateji vəziyyətinə və iqtisadi potensialına görə dünya dövlətlərinin diplomatik mübarizəsinə cəlb edilməsinə və onların öz planlarını həyata keçirmək üçün müxtəlif vasitələrə əl atmalarına ayrıca diqqət yetirimişdir;

- Dissertasiyada Azərbaycanın 1991-ci ildə öz müstəqilliyini bərpa etməsi sovet imperiyasına qarşı xalqımızın 70 illik mübarizəsinin labüd nəticəsi olması tam əsaslandırılmışdır;

- Tədqiqatın gedişində Azərbaycanda baş verən gərgin ictimai-siyasi, sosial-iqtisadi proseslər, müstəqillik uğrunda yüksələn ümumxalq mübarizəsi və istiqlal hərəkatının zəfərlə başa çatması məsələləri yetərincə öyrənilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın sonunda onun nəticələrinə əsaslanmaqla bir sıra zəruri tövsiyə və təkliflər verilmişdir. Dissertasiyada milli dövlətçiliyin bərpasından sonra ən yaxın illərdə, perspektivdə həyata keçirilməsi zəruri olan məqsəd və vəzifələr nəzəri cəhətdən konkretləşdirilərək əsaslandırılmışdır.

Dissertasiyanın materiallarından:

- Azərbaycanın tarixinə dair elmi əsərlərin yazılmasında;
- Müasir şəraitdə Azərbaycan dövlətinin səmərəli və düşünülmüş dövlətçilik siyasətinin yeni vəzifələrinin işlənilib hazırlanmasında;
- Dərs vəsaiti və mühazirə mətnlərinin tətibində;
- Ali məktəblərdə "Azərbaycan tarixi", "Milli dövlətçilik: tarixi ənənələr və perspektivlər", "Azərbaycanın xarici siyasəti və dövlətçilik məsələləri", "Azərbaycanın beynəlxalq təşkilatlarla əməkdaşlığı" və s. ixtisaslar üzrə xüsusi kursların keçirilməsində;
- "Azərbaycan tarixi"nə dair yeni ensiklopedik nəşrin tərtibində;
- Milli dövlətçilik, sosial-iqtisadi və siyasi inkişafın yeni perspektiv konsepsiyalarının hazırlanmasında istifadə edilə bilər.

Xüsusi olaraq qeyd etmək istərdik ki, dissertasiya vətən tarixşünaslığında tədqiq olunan problem sahəsindəki müəyyən boşluğu doldurmağa xidmət edir. İşin nəticələri, müddəaları və faktiki materialı

Azərbaycan tarixi üzrə ümumiləşdirici əsərlərin yazılmasında istifadə oluna bilər.

Bundan əlavə, tədqiqatın nəticələri və əsaslandırılan tövsiyələri gələcəkdə bu problemin müxtəlif tərəflərini tədqiq edəcək mütəxəssislər üçün də başlanğıc rolu da oynaya bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işi Sumqayıt Dövlət Universitetinin "Azərbaycan və Şərqi Avropa xalqları tarixi" kafedrasının **XX fevral** 2022-ci il tarixli iclasında müzakirə edilmiş və müdafiəyə buraxılmaq üçün məsləhət görülmüşdür. Tədqiqatın məzmununu əhatə edən əsas müddəalar müəllifin Azərbaycan Respublikası Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi nəşrlərdə çap olunmuş məqalələrində, ölkənin elm ocaqlarında keçirilmiş elmi konfranslardakı çıxışlarında əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Sumqayıt Dövlət Universiteti.

**Dissertasiyanın strukturu:** Dissertasiya Giriş, 3 fəsil, 6 yarımfəsil, Nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **""Yenidənqurma" kampaniyasının başlaması və onun Azərbaycan SSR-dəki vəziyyətə təsiri**" adlı ilk fəslinin **"1980-cı illərin ortalarında Azərbaycan SSR-də sosial-iqtisadi vəziyyət"** adlanan birinci yarımfəslində bildirilir ki, 1980-ci illər Azərbaycan tarixində sosial - iqtisadi inkişaf baxımından əvvəlki onilliklər və dövrlərlə müqayisədə bir çox cəhətdən fərqli olmuşdur.

Bu baxımdan SSRİ-nin süqutu ərəfəsindəki son 5-6 ildə əvvəlki illərdən fərqli axarda cərəyan edən proseslər arasında ən əvvəl sosial - iqtisadi sahələrin nəzərdən keçirilməsi daha önəmlidir.

Sosial - iqtisadi vəziyyətin 1980-ci illərin ortalarına aid göstəricilər birmənalı qiymətləndirilə bilməz. Bu elə bir vaxt idi ki, minilliklərlə ölçülən tariximizin yüksəliş, əsil intibah illəri olan 1969-cu ildən başlayan H.Əliyevin rəhbərliyi dövründə Azərbaycan SSR əsas sosial - iqtisadi göstəriciləri üzrə ittifaqda ən öncül səviyyəyə çatmışdı.

Eyni zamanda, o vaxt bu cür inkişaf və yüksəliş dinamikasının ardınca 1983-1985-ci illərdə, yəni cəmi 2-3 il ərzində vəziyyətin kəskin dəyişəcəyi, dəqiq desək, sosial - iqtisadi inkişaf səviyyəsinin aşağı düşəcəyi haqqında düşünmək də, yəqin ki, mümkün deyildi. Amma hər

bir halda müəyyən dəyişikliklərin, sosial - iqtisadi inkişafın əsas göstəriciləri baxımından geriləmə hallarının baş verməsi fakt idi.

80-ci illərin ortalarında respublikada aqrar sahədə və sənaye məhsulları istehsalının əksər sahələrində 70-ci illərdəki dinamik inkişafın əksinə olaraq, istehsalın artım sürətinin aşağı düşməsi, məcmu məhsulun hiss olunacaq dərəcədə azalması kimi mənfi iqtisadi meyllər özünü daha çox büruzə verirdi.

*"Kənd təsərrüfatı məhsullarının ümumi həcmi 1990-cı ildə 1985-ci il səviyyəsinin 86,4%-ni təşkil edirdi."*[25] Dövlət müstəqilliyinin bərpası ərəfəsində Azərbaycan iqtisadiyyatı bütövlükdə böhrana məruz qalaraq, tədricən istehsal potensialının mühüm hissəsini itirirdi.

Bu vəziyyətin digər bir səbəbi isə *"1982-ci ilin noyabrında ittifaq rəhbərliyində ən yüksək postlardan birinə - SSRİ Nazirlər Sovetinin sədrinin birinci müavini vəzifəsinə təyin edilən H.Əliyevin Azərbaycandan getməsindən sonra"* yeni respublika rəhbərliyinin fəaliyyəti ilə bağlı idi.[26] Əlbəttə, kimliyindən asılı olmayaraq, yeni rəhbərin Azərbaycan SSR-nin idarəçilik sükanının arxasına keçən yeni rəhbərin indi iş gününün və ümumiyyətlə, vaxtının çoxunu xalq təsərrüfatının bütün sahələrində ən müxtəlif mürəkkəb problemlərin həllinə sərf edən, həm də vəzifə kabinetindən deyil, rayonlarda, yerlərdə, müəssisələrdə, tarlalarda, əhali ilə birbaşa təmaslarda keçirən H.Əliyevin əldə etdiklərini təkrar etməsi, əvvəlki idarəçilik kursunu davam edə bilməsi mümkün deyildi.

80-cı illərin ortalarından başlayaraq iqtisadiyyatın bütün əsas sahələrindəki geriləmə respublikanın sosial həyat sahələrində də ciddi mənfi meyllərin yaranmasına səbəb oldu. Əhalinin ərzaq və qeyri - ərzaq mallarına olan tələbatı tam ödənilmirdi. 80-ci illərin əvvəlləri və ortalarında respublika şəhərlərində əsas ərzaq məhsulları talonlarla verilməyə başlanmışdı.

*"1990-cı ilin məlumatına görə əhalinin adambaşına 200 manatdan yüksək ümumi gəlir əldə edənləri Azərbaycanda cəmisi 10,1 faiz təşkil*

[25]Nadirov, A. Müstəqil Azərbaycan iqtisadiyyatının inkişaf məsələləri / A.Nadirov. - Bakı: Elm, - 2001. - s.137.

[26] İkinci Bağırovun boz taleyi: [Elektron resurs] https://musavat.com/news/ikinci-bagirovun-boz-taleyi_92738.html

*edirdi, bu da respublikanın orta ittifaq göstəricisindən 3 dəfəyə qədər, Gürcüstandan 3 dəfədən çox, Ermənistandan 2,7 dəfə geri qalması demək idi."*[27] Beləliklə, dövlət müstəqilliyinin bərpası ərəfəsində Azərbaycan 70-80-ci illərdə qazandığı güclü iqtisadi potensialı tədricən itirməyə başlamışdı.

Beləliklə, 12-13 illik inkişaf və tərəqqi dövrünün ardınca həmin vaxt bütün ittifaqı bürümüş durğunluq dövrünün əlamətləri və bunların sosial - iqtisadi həyata mənfi təsiri Azərbaycan SSR-ə də yol tapdı.

Bu fəslin **"Yenidənqurma" kampaniyası və ilk nəticələri"** adlanan ikinci yarımfəslində M.Qorbaçovun siyasi və iqtisadi islahatlar adı ilə gördüyü işlərin Azərbaycan SSR-də törətdiyi ağır nəticələr təhlil edilmişdir. Cəmi 3 il ərzində SSRİ adlanan Sovet imperiyasında 3 dəfə dövlət başçısının dəyişməsindən sonra M.Qorbaçovun 1985-ci ilin martında o vaxt ittifaqda idarəçilik sistemində faktik birinci vəzifə sayılan *"Sov.İKP MK-nın Baş Katibi vəzifəsini tutması",*[28] ilk baxışda ziddiyyətli heç nə vəd etməsə də, amma tezliklə nəinki ittifaq, həm də dünya miqyasında ciddi sosial - iqtisadi, bir qədər sonra isə siyasi dəyişikliklərin başlanğıcı oldu.

Azərbaycan SSR bu illərdə müxtəlif ictimai-siyasi və iqtisadi təsirlərə məruz qaldı. Bu müddətdə baş vermiş bütün siyasi - iqtisadi islahatlardan və dəyişikliklərdən ən çox zərəçəkən də elə Azərbaycan SSR oldu.

Respublikamızda idarəçilik sistemindəki vəziyyət haqqında da eyni sözləri demək olar. Mərkəzi partiya və dövlət idarəçilik aparatında, eləcə də müttəfiq respublikaların çoxunda partiya və sovet kadrlarının, təxminən yarıdan çox hissəsinin yeniləndiyi halda, respublikada ilk və rayon partiya təşkilatlarının, sovet - təsərrüfat orqanlarının tərkibi, demək olar ki, dəyişməz qalırdı.

K.Bağırovun 1988-ci il hakimiyyətdən getməsinə qədərki bütün fəaliyyətinin gedişi hansısa ciddi, sensasion addımlar atılması, qərarlar qəbul edilməsi ilə müşayiət edilmədi. Qeyd etdiyimiz kimi, "yenidənqurma"nın ilk mərhələsində mərkəzi partiya və dövlət

---

[27] Yenə orada

[28] Azərbaycan Respublikası 1991-2001 / - Bakı: XXI-Yeni Nəşrlər Evi, - 2001. - s.59.

idarəçilik strukturlarında ciddi kadr dəyişiklikləri getdiyi halda, respublikada bu sahədə vəziyyət, demək olar ki, dəyişməz qalmışdı.

Bir daha təəssüflə qeyd etməliyik ki, "yenidənqurma"nın ilk mərhələsində Azərbaycan SSR-də respublika rəhbərliyinin ətalətli mövqeyi, səhlənkar seyrçiliyi və digər amillər buna gətirib çıxardı ki, başlanmış iqtisadi-siyasi islahatların verdiyi imkanlardan, heç olmasa, cüzi olsa belə, lazımi qədər faydalanmaq mümkün olmadı.

Respublika rəhbəri və rəsmilərinin mövqeyindən fərqli olaraq ziyalılarımız yeni siyasi dəyişikliklərin verdiyi imkanlardan çətinliklə də olsa, yararlanmağa çalışır, senzuranın hələ də qalan əvvəlki sərt tələblərinin törətdiyi çətinlikləri aşaraq bəzi qəzetlərdəki məqalələr və bəzən respublika rəhbərliyinə birbaşa məktublar vasitəsilə müəyyən fikirlər səsləndirirdilər.[29]

Yaranmış ictimai-siyasi şəraitdə respublikanın on illərlə mövcud olmuş problemlərinin səsləndirilməsi, həllinə təşəbbüs göstərilməsi sahəsində respublika rəsmiləri və ictimaiyyətin mövqeləri arasında müqayisələrin aparılması göstərirdi ki, birinci tərəfin gözləmə və passiv mövqeyindən fərqli olaraq ikinci tərəf müəyyən qədər fəal təsir bağışlayırdı. Bu vəziyyət, birinci tərəfin imkanları və rəsmi səlahiyyətlərindən istifadə edə bilməkdə ləngliyi ilə, bəlkə bunu istəməməsi qarşılığında, ikinci tərəfin məqsəd və niyyətlərinin milli maraqlara xidmət etməyə yönəlməsinə baxmayaraq, bunların icrası üçün faktik, rəsmi səlahiyyətlərə malik olmaması kimi təzadlı mənzərə yaradırdı.

O illərdə bəhs etdiyimiz idarəçilik, istehsal və digər sahələrdə islahatlar keçirilməsi haqqında ciddi ictimai müzakirələrin aparılması qeyri - mümkün idi, yaxud ən azı, bu haqda söhbət getmirdi. Çünki konkret hesablamalar, geniş müqayisə və təhlillər aparılması nəticəsində ümumi respublika miqyaslı problemləri mərkəz qarşısında qabartmaq, perspektiv xalq təsərrüfatı xarakterli tədbirlər kompleksi işləyib hazırlamaq yalnız Azərbaycan SSR hökumətinin səlahiyyətlərinə aid olaraq, həm də onun imkanları daxilində olsada, bu baş vermədi.

---

[29]Azərbaycan EA-nın Tarix İnstitunun baş elmi işçisi, professor Hüseynov Rauf Əmir oğlunun Azərbaycan KP MK-nın birinci katibi Ə.Vəzirova məktubu. 27. 12. 1989 // Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi sənədlər Arxivi, Fond № 1, siyahı №84, iş № 212, vərəq – 288-292.

Dissertasiyanın **“Dağlıq Qarabağ problemi. Xalq hərəkatının güclənməsi.”** adlanan ikinci fəslinin **“Dağlıq Qarabağ konflikti və Xalq hərəkatının başlanması”** adlı ilk yarımfəslində deyilir ki, Dağlıq Qarabağ münaqişəsi başlayandan 2020-ci ilin 27 sentyabr - 10 noyabrında zəfərlə bitən 44 günlük Vətən müharibəsinə qədər bu problem haqqında yüzlərlə kitab, monoqrafiya, digər tədqiqat əsərlərin müəlliflərinin çoxu hesab edir ki, Dağlıq Qarabağ münaqişəsinin başlanması bütövlükdə respublika daxilində ictimai - siyasi vəziyyəti kəskinləşdirmiş, onu kritik həddə çatdırmış, bununla da dövlət müstəqilliyinin bərpası ilə nəticələnən istiqlal mübarizəsinin sürətlənməsinə təsir göstərmişdir.

Hadisələrin gedişinə vaxtında və operativ müdaxilə etməli olan respublika rəhbərliyi dərhal təcili, zəruri tədbirlər görməli olduğu halda, bundan əvvəl də adət etdiyi kimi, hadisələrin qarşısını almaq, qabaqlayıcı addımlar atılması əvəzində mərkəzin buyruqlarına müntəzir dayanmışdı. *“Dağlıq Qarabağda erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana vermək haqqında məsələ qaldırırdılar. Əfsuslar olsun ki, Azərbaycan Respublikasının rəhbərliyi bu məsələyə çox biganə yanaşırdı, öz məsuliyyətini dərk etmirdi və beləliklə, vəziyyəti nəzarətdən buraxmışdı.”*[30]

Fikrimizcə, bu sözlər 1987-ci ilin sonları - 1988-ci ilin əvvəllərində respublikadakı əhval - ruhiyyəyə, rəhbər orqanlarının, açıq desək, fəaliyyətsizliyinə verilmiş ən düzgün qiymət idi. Halbuki, elə həmin vaxtlar, sonralar da Qazaxıstan, Baltikyanı və digər respublikalarda mərkəzin milli maraqlara zidd olan mövqelərinə qarşı respublika rəhbərlikləri səviyyəsində ciddi tənqidi fikirlər söylənilməsi halları tez - tez baş verirdi.

1988-ci ilin fevralın 20-də vilayət sovetinin sessiyasında erməni deputatların əksəriyyəti vilayətin Azərbaycan SSR-dən alınıb Ermənistan SSR-ə verilməsi leyhinə səs verdi. *“Müvafiq müraciətlər Bakı, Yerevan və Moskvadakı Ali Sovetlərə göndərildi.”*[31]

---

[30] Əliyev İlham. İnkişaf - məqsədimizdir: [105 cilddə] / İ.Əliyev. - Bakı: Azərnəşr, - Yüz üçüncü kitab. may 2020 - iyun 2020. - 2020, - s.62-63.

[31] Помпеев, Ю. Кровавый омут Карабаха / Ю.Помпеев. - Баку: Азербайджан, - 1992. - с.27.

Həmin vaxt respublika rəhbərliyinin tabeliyindəki hüquqi mühafizə təşkilatlarının qüvvələrinin, daxili qoşunların və digər strukturların gücü ilə də vəziyyətin sonradan nəzarətdən çıxmasının qarşısını almaq olardı. Lakin bu baş vermədi. Bunun 33 il keçəndən sonra anlaşılması acı həqiqət idi.

Baş verən ictimai - siyasi proseslərin əsas tərəfləri və ya fiqurantları respublikadakı vəziyyətə təsir göstərib onu idarə etməli olan Azərbaycan rəhbərliyi deyil, Bakıda, digər şəhər və rayonlarda baş verən kortəbii mitinqlərin, izdihamların əsas iştirakçıları olan xalq kütlələri, bir də yaranmış böhranlı vəziyyətdən çıxış yolu axtaran, hətta müəyyən əsaslı təkliflər irəli sürən ziyalılarımız idi. Bu üç qüvvə bir araya gəlib vəziyyəti idarə edə, hadisələrin böhranlı nəticələrini azalda, hətta vilayətdəki separatçılıq çıxışlarına son qoya bilərdi.

Mərkəzin respublika ictimaiyyətinin, xalqın diqqətini Dağlıq Qarabağda baş verən hadisələrdən yayındırmaq məqsədi ilə atdığı ilk addımı Ermənistan SSR-də yaşayan azərbaycanlıların tarixi torpaqlarımızdan qovulması və ya deportasiyasının son mərhələsinin başlanğıcına "xeyir - dua" verilməsi oldu. Nəticədə hadisələrin ilk aylarında *"Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələrlə əlaqədar respublikada Ermənistan SSR-dən qovulmuş 33942 ailə, 160875 azərbaycanlı qeydə alınmış və onlar respublikanın 50 şəhər və rayonunda müvəqqəti məskunlaşdırılmışdılar."*[32]

İttifaq rəhbərliyinin Azərbaycanın diqqətini Qarabağdakı vəziyyətdən uzaqlaşdırmağa yönələn tədbirlər sırasında növbəti addım olan *"1988-ci ilin fevralında Sumqayıt hadisələrinin baş verməsi"*[33] ittifaqın xüsusi xidmət orqanları tərəfindən əvvəlcədən düşünülüb gizli şəkildə hazırlanmış hadisələrin senarisində növbəti gediş idi.

Hadisənin mahiyyəti, kökləri haqqında İlham Əliyevin fikirlərini xatırlatmaq yerinə düşərdi. Sumqayıt faciəsinin senarisinin faciədən xeyli əvvəl erməni millətçilərinin və onların mərkəzdəki havadarlarının iştirakı ilə hazırlandığını bildirən İ.Əliyev demişdir ki, *"məqsəd bu*

---

[32] О работе проводимой по обустройству беженцев из Армянской ССР и возмещению причиненного им материального ущерба // Azərbaycan Respublikası Dövlət Arxivi, Fond № 411, siyahı №56, iş № 27, vərəq - 241.

[33] İsmayılov, A. Sumqayıt - SSRİ-nin süqutunun başlanğıcı prosesi / A. İsmayılov. Bakı: Çaşıogıu, - 2010. - s.11.

*olmuşdur ki, iğtişaşlar törətmək və sonra bildirmək ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibində qala bilməz.”*[34]

Moskva Azərbaycan KP MK-nın 21 may 1988-ci ildə keçirilən plenumunda daha bir məkrli məqsədinə nail ola bildi və guya səhhətinin pisləşməsi ilə əlaqədar Azərbaycan KP MK-nın birinci katibi K.Bağırovu uzun illər Azərbaycandan kənarda yaşamış Ə.Vəzirov əvəz etdi. Formal olaraq bildirilirdi ki, *“Siyasi Büro Azərbaycan KP MK-nın I katibi vəzifəsinə namizəd məsələsini müzakirə edərək bu vəzifəyə Ə.Vəzirovun seçilməsini tövsiyə etmişdir.”*[35]

Qeyd edildiyi kimi, bununla eyni vaxtda Ermənistan SSR rəhbərliyinin dəyişdirilməsi də vilayətin Azərbaycandan ayrılması planını daha da tezləşdirmək məqsədinə xidmət edirdi.

Ə.Vəzirov ona tapşırılmış missiyanı hələlik uğurla icra edirdi. Nəticədə əhalinin diqqətini Dağlıq Qarabağ probleminin həlli tələbindən ən azı bir müddət uzaqlaşdırmaq mümkün olmuşdu.

İkinci fəslin **“Xalq hərəkatının genişlənməsi. Meydan hərəkatı.”** adlanan ikinci yarımfəslində bildirilir ki, Dağlıq Qarabağda vəziyyətin normallaşdırılması üçün imkan və vasitələrdən istifadə edilməməsi təsirsiz qala bilməzdi. Bu vəziyyətdə də ən çox narahatçılıq keçirən yenə də ziyalılarımız idi.

Etiraf etmək lazımdır ki, həmin günlərdə vilayətdən yeni həyəcanlı yeni xəbərlərin daxil olmasına baxmayaraq, xalqın etiraz hərəkatını təşkilatlandırmaq, bir cəbhədə birləşdirmək hələlik baş tutmurdu. Bu vəziyyətdə ən adi, lakin hər kəskin münasibət bildirməsi vacib olan adi bir hadisə qığılcım rolu oynaya bilərdi. Bu özünü çox gözlətmədi.

*“Şuşa şəhəri yaxınlığında vilayətin erməni rəhbərliyi tərəfindən Topxana meşəsinin qırılaraq orada sənaye obyekti tikilməsinə başlanılması vəziyyəti kökündən dəyişdirdi.”*[36]

---

[34] Yenə orada, s.65

[35] Материалы 11-го пленума ЦК КП Азербайджана от 21 мая 1988 г. // Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi sənədlər Arxivi, Fond № 1, siyahı №83, iş № 7, vərəq - 3-4.

[36] Ağayev Nəsir. Meydan hərəkatı barədə: [Elektron resurs] https://azrefs.org/elman-ceferli-tebriz-agayev.html?page=5

Ancaq indi, bəlkə də ilk baxışdan adi görünən bu hadisə cəmi bir neçə gün ərzində yüz minlərlə insanları bir araya gətirərək xalq çıxışlarını daha mütəşəkkil qüvvəyə çevirdi.

Bu ayları demokratik hərəkatın, xalq kütlələrinin fəallığının artaraq milli azadlıq xarakteri alması kimi də qəbul etmək olar. Bu mərhələ üçün xarakterik xüsusiyyətlərin biri kortəbii başlamış çıxışların kütləvi hal alaraq, get - gedə genişlənən, idarə olunan mütəşəkkil bir qüvvəyə çevrilməsi idi.

İctimaiyyətin fəaliyyətində xalq hərəkatının gedişinə ciddi təsir göstərən bir hadisədən bəhs etmək yerinə düşərdi. 1988-ci ilin iyun ayının 18-də Azərbaycanda vəziyyətin həddən artıq gərginliyini görən Moskva yeni hiyləyə əl atdı. M.Qorbaçov SSRİ Ali Sovetinin Rəyasət heyətində keçirilən yığıncaq - şouda bildirdi ki, *"SSRİ Ali Sovetinin Rəyasət heyəti SSRİ Konstitusiyasına uyğun olaraq Dağlıq Qarabağın muxtar vilayət kimi Azərbaycan SSR-in tərkibində saxlanılması şərti ilə DQMV-də müvəqqəti olaraq Xüsusi idarə forması tətbiq edir."*[37]

Bu, Azərbaycan SSR Konstitusiyasının kobudcasına pozulması demək idi. Çox təəssüf ki, yığıncaqda deyilənlər, qəbul edilmiş qərarın Azərbaycanın xeyrinə olduğunu qəbul edənlər, məsələnin ədalətlə həll edildiyi kimi başa düşənlər çox, bu hiyləgər addımın arxasında nələr olduğunu, onun ərazi bütövlüyümüzün pozulmasına aparacaq böyük faciənin gedişində növbəti təhlükəli addım kimi qiymətləndirənlər isə çox az oldu.

1988-ci ilin ortalarında bir qrup ziyalı xalq hərəkatına rəhbərlik edəcək bir təşkilatın yaradılması üçün fəaliyyətə başladı. *"1988-ci ilin sonunda Azərbaycan Xalq Cəbhəsi (AXC) yaradıldı."*[38] AXC-nin yaradılması Azərbaycanda bir növ siyasi ictimai-siyasi fəallığı daha da güclənməsinə işarə idi. AXC qeyri - iradi xalq hərəkatını idarə etməyə və onu ölkənin son dərəcə mühüm problemlərinin həllinə yönəltməyə qadir olan bir qüvvə idi. Lakin həmin vaxt bəzi çətinliklər, o cümlədən

---

[37] Протокол собрания партийного актива партийной организации республики. 13 января 1989 года // Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi sənədlər Arxivi, Fond № 1, siyahı №84, iş № 161, vərəq - 6.

[38] Balayev Aydın., Mirzə Rasim. 20 Yanvar hadisələri. Sənədlər, mövqelər, şərhlər (1990-2000). Bakı: Çaşıoğlu, - 2000. - s.17.

rejimin yaratdığı süni maneələr və digər səbəblər təşkilatın səmərəli fəaliyyətinə mane olurdu.

Dağlıq Qarabağdakı vəziyyətin günbəgün pisləşməsi nəticəsində xalq hərəkatının yeni - *"1988-ci ilin noyabrın 17-dən dekabrın 5-dək davam etmiş mərhələsi hesab edilən Bakının indiki Azadlıq, o vaxtkı Lenin meydanında Azərbaycan xalqının uzunmüddətli mitinqlərin keçirilməsi"*[39] əhalinin ictimai - siyasi fəallığının olduqca artması ilə yadda qaldı.

1989-cu ilin yazında Moskvada SSRİ xalq deputatlarının ilk qurultayında baş verənlər, qeyd etdiyimiz vəziyyətin əksi idi.[40]

Qurultayda iştirak edən deputatlarımızın, bir neçəsini çıxmaq şərtilə, erməni iftiralarını təkzib etməkdə tam acizlik göstərmələri ciddi siyasi məsuliyyətsizlik idi. Deputat korpusumuzdan fərqli olaraq adi vətəndaşlar erməni millətçilərinin çağırışlarını kəskin pisləyir, ölkə rəhbərliyinə təcili tədbirlər görülməsinü tələb edən çağırışlar səsləndirirdilər. Lakin Azərbaycan rəhbərliyinin Moskvaya vəziyyəti nizamlayacaq təkliflərlə müraciətləri, ziyalılarımızın, *"on minlərlə vətəndaşların vilayətdə qanunçuluğun pozulması ilə bağlı saysız şikayət məktubları"* qulaqardına vurulurdu[41]

1989-cu ilin bütün gedişi boyu insanları ciddi şəkildə narahat edən hal sözsüz ki, xalq hərəkatının gedişində ən çox müzakirə edilən, fikir ayrlıqları yaradan problemlərin hakimiyyət strukturları tərəfindən həlli imkanları hələ də qaldığı halda, Ə.Vəzirovun tamam başqa yolla getməsi idi. Nəticədə Moskvanın Dağlıq Qarabağla bağlı qeyri - rəsmi planlarının məzmununu dəyişməyə məcbur edə biləcək ictimai və ya vətəndaş həmrəyliyinə nail olmaq üçün praktik addımlar atılmadı. Əksinə, xalq hərəkatının adi iştirakçıları, hərəkatda təmsil olunan

---

[39]Dövlət müstəqilliyinin bərpası və qorunub saxlanılması: [Elektron resurs] http://republic.preslib.az/az_a3.html

[40] Помпеев, Ю. Кровавый омут Карабаха / Ю.Помпеев. - Баку: Азербайджан, - 1992. - с.110.

[41]Azərbaycan vətəndaşlarının erməni millətçisi Z.Balayanın deputat mandatının ləğvi tələbi ilə SSRİ Xalq deputatlarının qurultayına müraciətləri // Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi sənədlər Arxivi, Fond № 1, siyahı №84, iş № 217, vərəq - 1-53.

cəmiyyət və təşkilatlar arasında nifaq salmaqla, cəmiyyətin diqqətini ən əsas problemdən yayındırmağa cəhdlər göstərilirdi.

Dissertasiyanın **"İttifaq rəhbərliyinin Azərbaycanda milli - azadlıq hərəkatını boğmaq cəhdləri və müstəqillik uğrunda mübarizənin güclənməsi"** adlanan üçüncü fəslinin **"Xalq hərəkatını boğmaq cəhdləri. "Qanlı yanvar.""** adlı ilk yarımfəslində bildirilir ki, 1990-cı ilin yanvarın 8-də respublidakı vəziyyətin müzakirəsi üçün çağrılmış partiya - təsərrüfat fəallarının yığıncağında Baş nazir H.Həsənov Ə.Vəzirovun ünvanına açıq tənqidlə çıxış edərək demişdi ki, *"xalqın mərkəzə, bizə inanmaması eyni dərəcədədir. Xalq bizlərin hər birində xalqın mənafeyinə xidmət etməkdənsə, mərkəzin göstərişlərinə danışıqsız xidmət etməyi üstün tutan məmur görür."* [42]

Respublidakı etiraz mitinqlərinin respublikadakı vəziyyəti kəskinləşdirərək Moskvanı narahat edəcək arzuolunmaz proseslərə aparıb çıxara biləcəyi təhlükəsinin reallaşdığını başa düşən ittifaq hökuməti nəhayət *"1989-cu ilin noyabrın 28-də Dağlıq Qarabağda XİK-ni ləğv etdi. Vilayətin idarə olunması SSRİ Ali Sovetinin Xüsusi Komissiyasının nəzarəti altında Azərbaycan SSR-nin Təşkilat Komitəsinə tapşırıldı."*[43]

Moskvanın bu addımını bəlkə də xalq hərəkatının uğuru kimi də qəbul etmək olardı. Lakin artıq gec idi və XİK öz missiyasını sonadək icra etmiş, DQMV Azərbaycanın idarəçiliyindən çıxarılmışdı.

Belə bir şəraitdə mərkəzin xalq hərəkatına ciddi zərbə vurmaq planları gedişində ən ağırı və acısı olan yanvar faciəsinə hazırlığın son gedişlərinin icrasına start verildi.

1990-cı il 20 yanvar faciəsi mahiyyətcə ölkə rəhbərliyinin ermənilərin ərazi iddialarından başlanan cinayət əməllərinin qarşısını almaq əvəzində onlara havadarlıq etmək siyasətindən irəli gələn, sovet hərbi hissələrinin gücü ilə xalqımıza qarşı qırğın kampaniyası idi.

Ermənistan, habelə Rusiya tarixşünaslığında bəzi müəlliflər faciənin baş verməsində respublika rəhbərliyini və hüquq mühafizə

---

[42] Черный январь. - Баку - 1990: Документы и материалы / - Баку: Азернешр, - 1990. - с.55-56.

[43] Dövlət müstəqilliyinin bərpası və qorunub saxlanılması: [Elektron resurs] http://republic.preslib.az/az_a3.html

orqanlarını günahlandıraraq bildirirlər ki, *"faciə məhz onların təqsiri ucundan baş verdi, yüzlərlə bakılı erməni öldürüldü."*[44]

Bu fikirlərlə razılaşmaq qətiyyən mümkün deyil. Bu fikirlərin sahibləri birlərəkdən belə bir məsələnin üstündən keçirlər ki, günahsız, dinc insanların qətlə yetirilməsi hələ 1988-ci ilin fevralında vilayətdə, Ermənistan SSR-də başlamış, lakin bu cinayətlərə heç cür hüquqi qiymət verilməmiş, hətta qətlə yetirilənlərin sayı qəsdən azaldılmışdı.

Onu da qeyd etməliyik ki, faciə ərəfəsində vəziyyətdən daha çox xəbərdar olan mərkəz onun baş verməsində maraqlı tərəf idi. Bu təxribat, əslində Azərbaycanda xalq hərəkatının genişlənəcəyindən ehtiyat edən Moskvanın vəziyyətin nəzarətdən çıxmasının "qarşısını almaqda" maraqlı olmasından, respublikada mürəkkəb vəziyyətin yaranmasında əsas "təqsirkar" - "Dağlıq Qarabağı Erməistana birləşdirmək" planının qarşısını real qüvvə olaraq kəsə biləcək xalq hərəkatına "qulaqburma verilməsi" niyyətindən irəli gəlirdi.

Yanvarın 19-da axşam saatlarında respublika DİN-in binasında olan 3 ittifaq nazirinin dəfələrlə verdiyi vədlərin əksinə olaraq, **"***M.Qorbaçov Azərbaycan Ali Sovetinin razılığı olmadan yanvarın 20-də saat 00-dan etibarən "Bakı şəhərində fövqəladə vəziyyətin tətbiq edilməsi haqqında" fərman imzaladı."*[45] və qanlı qırğın baş verdi.

"*Azərbaycan Respublikası Prezidentinin 5 yanvar 1994-cü il tarixli fərmanı ilə Milli Məclisə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verməsi tövsiyə olunmuşdur. 1990-cı il yanvarın 20-də törədilmiş faciəli hadisələrə Milli Məclisin 29 mart 1994- cü il tarixli qərarı ilə siyasi-hüquqi qiymət verilmiş*"[46] və SSRİ Ali Soveti Rəyasət Heyətinin 1990-cı il 19 yanvar tarixli fərmanı Azərbaycan SSR-in suverenliyinə qarşı təcavüz aktı, bu fərmanın Bakıda və onun ətrafında yüzlərlə adamın ölümünə və yaralanmasına səbəb olan icrasına

---

[44] Жирохов, М. Семена распада: войны и конфликты на территории бывшего СССР. / М.Жирохов. - Санкт-Петербург: БХВ – Петербург, - 2012. - с.23.

[45]Черный январь. - Баку - 1990: Документы и материалы / - Баку: Азернешр, - 1990. - с.78.

[46] Əliyev, H. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayırıcında. //Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına müraciət. 29 dekabr 2000-ci il / H.Əliyev. - Bakı: XXI - Yeni Nəşrlər Evi, - 2001. - s.23.

sərəncam vermiş SSRİ ali vəzifəli şəxslərin hərəkətləri isə Azərbaycan xalqına qarşı cinayət kimi qiymətləndirilmişdi.

Yanvar faciəsinin tarixi-siyasi əhəmiyyəti çox böyükdür və bu gün də ona diqqət yetirilməsi, mahiyyətinin nəticələrinin, anlaşılması müstəqilliyimizin qorunub saxlanılması və möhkəmləndirilməsinin yeni perspektivləri baxımından olduqca əhəmiyyətlidir.

Dissertasiyanın son fəslinin **"Dövlət müstəqilliyinin bərpasına aparan yolun son mərhələsi"** adlı ikinci yarımfəslində deyilir ki, sovet imperiyasının rəhbərlərinin göstərişi ilə edilmiş qanlı qırğınlar xalqın mübarizə əzmini sarsıda bilmədi və 1918-ci ilin yazında olduğu kimi, xalqı bu cür, sonrakı bəlalardan xilas edə biləcək yeganə yol kimi müstəqilliyimizin bərpasına nail olmaq məqsədi tam qətiləşdi.

Faciənin ardınca, 1990-cı il yanvarın 21-də Moskvada Azərbaycan nümayəndəliyinə gələn "*Ulu Öndər Heydər Əliyevin xalqımızın kədərini bölüşməsi və qırmızı rejimin ölkəmizdə həyata keçirdiyi qanlı aksiyanı ifşa etməsi o dövrdə xalqımıza bir dayaq, bir təsəlli oldu. Xalq o ağır günlərdə köməksiz olmadığını hiss etdi."*[47] Həmin gün Ulu Öndərin səsləndiridiyi bəyanat dövlət müstəqilliyinə gedən yolun son mərhələsinin başlanğıcı olaraq bu yolun gedişinə bir növ parlaq işıq salmış oldu.

Moskva bəyanatında faciənin səbəblərini təhlil edilib bir daha göstərildi ki, faciə Moskvanın və respublika rəhbərlərinin eyni dərəcədə günahı üzündən yol verilmiş kobud siyasi səhv idi.

Faciədən sonra siyasi həyarda baş vermiş ən mühüm dəyişiklik bu oldu ki, *"Moskva gizlincə respublikadan qaçmış Ə.Vəzirovun yerinə hakimiyyət uğrunda mübarizədə bütün vasitələrdən istifadə edərək qalib gəlmiş Ayaz Mütəllibovu yanvarın 24-də Azərbaycan KP MK-nın birinci katibi seçdirdi."*[48]

1990-cı ilin mayın 18-də Ali Sovetin sessiyasında yanvar faciəsindən sonra Moskvanın "tələblərini" artıq doğrultmuş

---

[47] Əliyev İlham. İnkişaf - məqsədimizdir: dekabr 2015 - fevral 2016. [105 cilddə] / İ.Əliyev. - Bakı: Azərnəşr, - Yetmiş ikinci kitab. dekabr 2015 - fevral 2016. - 2018, - s.128.

[48]Dövlət müstəqilliyinin bərpası və qorunub saxlanılması: [Elektron resurs] http://republic.preslib.az/az_a3.html

*“A.Mütəllibovun Azərbaycan Respublikasının ilk prezidenti seçilməsi də”* gözlənilməz hadisə demək deyildi.[49]

Qeyd etməliyik ki, müstəqilliyə aparan yolun son mərhələsində xalq hərəkatının bütün uğurları Ulu Öndər H.Əliyevin adı və fəaliyyəti ilə bağlı olmuşdur. H.Əliyev 1990-cı ilin iyulun 20-də Bakıya qayıtdıqdan sonra öz siyasi təcrübəsindən istifadə edərək iqtidara Dağlıq Qarabağ probleminin aradan qaldırılması üçün yardımını, bütün xalqın qüvvələrinin bu məqsəd ətrafında səfərbər edilməsini təklif etsə də, həm iqtidar, həm müxalifət cəbhəsindəki müəyyən qüvvələr bu böyük şəxsiyyətin kölgəsində qalacaqlarındanmı, siyasi qısqanclıqdanmı, ya da başqa əsassız səbəblərdən bunu istəmədilər.

Bakıdan Naxçıvana qayıtmalı olan H.Əliyev Naxçıvan MSSR və Azərbaycan SSR-in deputatı kimi həmin günlərdə səmərəli işlərin təşəbbüskarı oldu və onlara başçılıq etdi.

Naxçıvanda əhalinin təkidli tələbləri nəticəsində *“Ümummilli liderin sentyabrın 3-də Naxçıvan MR Ali Məclisinin sədri seçilməsindən sonra burada başlamış siyasi dəyişçikliklərin əks - sədası, təsiri tezliklə Bakıya da çatdı.”*[50]

Burada bir məsələ haqqında öz qənaətimizi bildirmək istərdik. Əgər AXC elan edilməsinin ardınca *“1918-ci ilin iyunun 16-da Tiflisdən Gəncəyə köçdükdən sonra*”[51] azadlıq hərəkatı, istiqlal bayrağı Gəncədən Bakıya gəlmişdisə, indi məhz H.Əliyevin çağırışları və təşəbbüslərindən sonra həm azadlıq, həm də müstəqillik rəmzi olan üçrəngli bayrağımızın Bakıya yolu məhz Naxçıvandan başladı.

Həmin günlərdə baş vermiş daha bir önəmli hadisədən danışmaq yerinə düşərdi. 1991-ci ilin fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin sessiyanın gedişi demokratik qüvvələrin, xalq hərəkatının təkidli tələblərinin nəzərə alınmasının nəticəsi kimi respublikanın adından sovet, sosialist sözlərinin götürülməsi adi bir hadisə olmayaraq, artıq Azərbaycan cəmiyyətindəki yeni siyasi reallığın əksi, nəticəsi demək

---

[49]Qasımlı, M. Azərbaycanın müstəqilliyinin 20 ili: xarici siyasətin formalaşması (1991-2003) // Ayna. - 2011. - 10 sentyabr. - s.19.

[50]Məmmədov M. Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü // Azərbaycan. - 2008, - 3 avqust. - s. 1.

[51]Əmrahov, M. XX əsrdə Azərbaycanda milli-azadlıq hərəkatı / M.Əmrahov. – Bakı: ADPU, - 2009. - s.138.

idi. *"Həmin gündən dövlətimizin adı dəyişdirilərək, "Azərbaycan Respublikası" aldlandırıldı."*[52]

Dövlət müstəqilliyinə aparan yolun son mərhələsindəki hadisələrdən biri bu oldu ki, demokratik qüvvələrin təkidi ilə 1991-ci il avqustun 30-da Ali Sovetin növbədənkənar sessiyasında gərgin müzakirələrdən sonra "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Bəyannamə qəbul edildi.[53]

Bəyannamə Azərbaycanda milli azadlıq hərəkatı tarixində vacib proqram xarakterli mühüm sənəd idi və o, xalqımızı 1920-ci ildən bəri gözlədiyimiz müqəddəs amala bir addım yaxınlaşdırdı.

Nəhayət dövlət müstəqilliyinin bərpası demək olan 1991-ci ilin oktyabrın 18-də Ali Sovet növbəti sessiyasında qanunun qəbul edilməsi xalqımıza çoxdan gözlənilən tarixi yaşatdı. *"Azərbaycan Respublikasının dövlət müstəqilliyini əldə etməsi 80-ci illərin birinci yarısından başlayaraq, keçmiş Sovetlər İttifaqında və bütün dünyada gedən ictimai-siyasi proseslərin zəruri nəticəsi idi."*[54]

1990-cı ilin dekabrın 8-də üç slavyan respublikasının - Rusiya Federasiyası, Ukrayna və Belorus respublikalarının ittifaqdan çıxdıqlarını bəyan etmələri və Müstəqil Dövlətlər Birliyini yaratmaları faktiki olaraq *"M.Qorbaçovun hakimiyyətinin əvvəllərindən başlamış siyasi oyunun məntiqi nəticəsi kimi SSRİ-nin süqutu demək idi."*[55]

Azərbaycanın müstəqilliyi bununla da bir daha rəsmiləşərək "dönməz", "əbədi" oldu. Bu hadisə xalqın tarixində yeni parlaq, azad, sərbəst inkişaf dövrünün - müstəqillik dövrünün əvvəli demək idi. Bu hadisə Azərbaycanın müstəqilliyi rəsmiləşərək xalqımızın tarixində yeni

---

[52]Dövlət müstəqilliyinin bərpası və qorunub saxlanılması: [Elektron resurs] http://republic.preslib.az/az_a3.html

[53]Əliyev, H. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayırıcında. //Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına müraciət. 29 dekabr 2000-ci il / H.Əliyev. - Bakı: XXI - Yeni Nəşrlər Evi, - 2001. - s.28-29.

[54]Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirminci ildönümü haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı. 21 yanvar 2011-ci il. http://e-qanun.gov.az/alpidata/framework/data/21/f_21170.htm

[55] Юнусов, А. Карабах: Прошлое и настоящее / А.Юнусов. Баку: Институт мира и демократии, - с.36.

parlaq, azad, sərbəst inkişaf dövrünün - müstəqillik dövrünün əvvəli oldu.

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqatın gedişində əldə olunmuş əsas qənaətlər sistemləşdirilmiş və ümumiləşdirilmişdir.

Araşdırmalar göstərmişdir ki, "yenidənqurma" kampaniyasının Azərbaycan SSR üçün ilk nəticələri birmənalı olmamış, ziddiyyətli xarakter daşımışdır. Respublika rəhbərliyinin passiv, seyrçi mövqeyi səbəbindən kampaniyanın ilk illərində ictimai - siyasi həyat sahələrini əhatə edən islahatların yaratdığı imkanlardan hətta müəyyən qədər istifadə edilməsi baş vermədi.

Tədqiqatın gedişində bir daha aydın oldu ki, ittifaq rəhbərliyi Azərbaycan SSR-ə münasibətdə yeni təzahürləri formalaşan və getdikcə güclənən milli azadlıq hərəkatını zəiflətmək, onu boğmaq üçün əsas zərbə üsulu kimi, on illər ərzində istifadə olunmuş xalqlar arasında milli münaqişə, ədavət törətməyə qərar verdi.

Tədqiqatda müəyyən edilmişdir ki, 20 yanvar faciəsi haqqında hələ bundan sonra neçə illər bəhs edilsə, faciənin incəlikləri, nəticələri təhlil olunsa da, məsələyə dəfələrlə qayıtmağa zərurət həmişə olacaq. Çünki bu gün Azrbaycan müstəqildir, özü öz torpaqlarının və taleyinin həm sahibi, həm müdafiəçisidir. Lakin bəzi qonşu dövlətlərin milli münasibətlərdən, digər faktorlardan istifadə edib regionda qalmaq, burada yenidən möhkəmlənmək cəhdləri yenə də davam edir.

Dissertasiyada araşdırılan proses və hadisələrdən çıxarılan nəticələr bir daha göstərir ki, dövlətçiliyimizə, müstəqilliyimizə qarşı yönələn bütün cəhdlərin qarşısı yalnız o halda alına bilər ki, bütün xalq, kimliyindən, peşəsindən, milli mənsubiyyətindən asılı olmayaraq milli maraqlarımızın aliliyi, dövlət müstəqilliyimizin toxunulmazlığı ideyası ətrafında vahid cəbhədə birləşə bilsin.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1.Azərbaycanlıların 1988-1991-ci illərdə Ermənistandan deportasiya edilməsi və onun Azərbaycan SSR-də ictimai - siyasi vəziyyətə təsiri. Etnik deportasiyalar: tarixi və müasir dövrü. Beynəlxalq elmi konfrans. 17-18 dekabr 2020-ci il. Sumqayıt Dövlət Universiteti. 2020. - s.242-247.

2.Dövlət müstəqilliyi uğrunda xalq hərəkatının başlanması // Tarix, insan və cəmiyyət. Elmi-nəzəri vəelmi-metodik jurnal. - 2021, 1 (31). - s.42-53.

3.20 yanvar faciəsi ərəfəsində siyasi rejimin xalq hərəkatını boğmaq cəhdləri // Tarix və onun problemləri. - 2021. № 2. - s.163-166.

4.Azərbaycanda dövlət müstəqilliyinin bərpası ərəfəsində ittifaq rərbərliyinin xalq hərəkatına qarşı mübarizəsi // Tarix, insan və cəmiyyət. Elmi-nəzəri və elmi-metodik jurnal. - 2021, 2 (32). - s.61-73.

5."Yenidənqurma" kampaniyası və Azərbaycan SSR-də onun ilk nəticələri // BDU Xəbərləri. - 2021. №2., s.162-168.

6.New moments in the tragedy of January 20, 1990 // Літопис Волині. Всеукраїнський науковий часопис. Заснований у 2001 р. Число 25. - 2021. - p.79-84.

7.Heydər Əliyev və Azərbaycanın dövlət müstəqilliyinin bərpası. Azərbaycan Respublikası 1991-2021: Dövlət müstəqilliyinin bərpası, iqtisadi və sosialmədəni inkişafı. Respublika elmi konfrans

(14-15 oktyabr 2021). Sumqayıt 2021. - s.63-66.

8.Azərbaycanı dövlət müstəqilliyinin bərpasına aparan yolun son mərhələsi. 5 th International conference on history & culture. August 17, 2021 / Ankara – Turkey. - p.83-89.



Dissertasiyanın müdafiəsi 12 fevral 2025-ci il tarixində saat 12⁰⁰ Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən ED. 2.20 saylı Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: Az.1143, Bakı şəhəri, Z.Xəlilov küç.23

Dissertasiya ilə BDU-nun Elmi kitabxanasında tanış olmaq olar.

Dissertasiya və avtoreferatın elektron versiyaları Bakı Dövlət Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 29 dekabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 14.12.2024
Kağızın formatı: 60x84 $^{1/16}$
Həcm: 54609
Tiraj: 30